**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**FOLKLOR İNSTİTUTU**

*Əlyazması hüququnda*

**SÖNMƏZ İSRAFİL QIZI ABBASLI**

# AZƏRBAYCAN LƏTİFƏLƏRİNİN REGİONAL XÜSUSİYYƏTLƏRİ

**10. 01. 09 ─ Folklorşünaslıq**

Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı - 2012**

Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunun “Klassik folklor” şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Oruc Söhrab oğlu Əliyev**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

**Rəsmi opponentlər:** **Ramazan Oruc oğlu Qafarlı**
*filologiya üzrə elmlər doktoru, dosent*

**Məhəmməd Məmmədsəid oğlu Məmmədov**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

**Aparıcı müəssisə:** Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun“Azərbaycan şifahi xalq ədəbiyyatı və yazılı abidələr” şöbəsi

Müdafiə “_17__” _09__ 2012-ci il saat ____ -da Azərbaycan MEA Folklor İnstitutunun nəzdində fəaliyyət göstərən FD.01.201 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir**.**

**Ünvan:** Bakı, İçərişəhər, 8-ci Kiçik Qala döngəsi 31, AMEA Folklor İnstitutu.

Dissertasiya ilə AMEA Mərkəzi Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat: “____” ___________ 2012-ci ildə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi,**
**filologiya üzrə fəlsəfə doktoru,**
**dosent:** **Rza Zeynal oğlu Xəlilov**

## TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Əksər xalqlar içərisində müxtəlif istilahlarla tanınan lətifələr folklorun müstəqil janrı kimi əsrlər boyu həmişə aktual səciyyə daşımışdır. Ayrı-ayrı tarixi mərhələlərdəki hakim təbəqənin, o sıradan ictimai-siyasi quruluşdakı nöqsan və çatışmamazlıqların xalq satira və yumoru vasitəsilə ifşa hədəfinə tutulması daima gündəmdə dayanan məsələlərdən olmuşdur. Çünki həm "dağıdıcı", həm də "yaradıcı" başlanğıcı öz daxilində qovuşduran gülüş mədəniyyəti müstəsna olaraq lətifələrdə, o sıradan regional gülməcələrdə daha çox məna yükü və tutumu kəsb etmişdir.

Xalq gülüşünun əsas elementlərini öz yaradıcılıqlarında qoruyan lətifə söyləyici-ifaçılarının (həmçinin daşıyıcılarının) əksəriyyəti zəmanəsinin tanınmış simaları kimi həm öz dövrlərində, həm də sonrakı yüzilliklərdə lətifə personajları, gülməcəbəzəmə qəhrəmanları kimi xalq içərisində böyük nüfuz sahibi olmuşlar. Onların düzüb-qoşduğu lətifələr bu gün də çağdaş zəmanəmizin problemləri ilə yaxından səsləşirlər. Bu baxımdan da müasir regional lətifələr məzmun və ideyalarına görə daha çox aktuallıq kəsb edirlər.

Aktuallıq toplanılıb nəşr olunmuş regional lətifə mətnlərinin daxili tələblərində də qorunmuşdur. Bu daxili tələblərin başlıca əlamətləri onda özünü göstərib bəraət qazanır ki, formalaşmış və qələmə alınmış mətnlər daha geniş dinləyici auditoriyasını əhatə etmiş olsun. Bu qəbil regional səciyyəli lətifələr külli miqdardadır və onlar demək olar ki, Azərbaycan ərazisinin əksər bölgələrini əhatə edir.

Ümumiyyətlə, lətifələr və onun tərkib hissəsi olan regional lətifələr mövzu və ideya baxımından yüzilliklər boyu, həmçinin müasir dövrümüzdə xüsusi aktuallıq kəsb edib günün nəbzi ilə yaxından döyünən bir janr kimi həmişə diqqət mərkəzində olmuşdur.

**Tədqiqatın obyekti və predmeti.** Lətifələrin, o cümlədən bölgə lətifələrinin toplanması və nəşrinin başlanğıc mərhələsi, onun uyğun mətbuat orqanlarında (XIX yüzilliyin ikinci yarısı və XX əsrin əvvəlləri) özünə yer almasının vəziyyəti, fərdi toplamatərtiblərlə "folklor kitabı"(xalq kitabı) – çapları, əsaslı şəkildə isə



regional antologiyalar silsiləsindəki akademik nəşrləri—bütün bu qaynaqlarda özünə yer tapmış, janrın daxili tələblərinə dolğunluğu ilə cavab verən yüzlərlə seçmə gülməcə örnəkləri dissertasiyanın başlıca obyektini təşkil etmişdir.

Araşdırmanın predmetini bilavasitə regional lətifələrin bədii özünəməxsusluğu — poetikası müəyyənləşdirir. Bu predmet xatırladılan obyekt əsasında qruplaşdırılmış və hər şeydən əvvəl, bu və digər dərəcədə öz elmi-nəzəri həllini tapmışdır. Bu mövzu-predmet dissertasiyanın aparıcı istiqamətinə çevrilmişdir.

**Dissertasiyanın məqsəd və vəzifələri.** Tədqiqatın başlıca məqsədi Azərbaycan lətifələrinin regional xüsusiyyətlərini üzə çıxarıb onları folklorşünaslığın müasir tələbləri səviyyəsində elmi-nəzəri təhlilə cəlb etmək olmuşdur. Bu məqsədlə regional lətifələrin yazıya alınma prinsipləri, nəzərdən keçirilən örnəklərin mətn strukturu, janrın daxili tələblərinə cavab verməsi və s. kimi məsə - lələr ön planda izlənilmişdir. Qarşıya qoyulmuş məqsəd aşağıdakı vəzifələri reallaşdırmağa imkan vermişdir:

Regional lətifələrin toplanması və nəşri tarixinin xronoloji ardıcıllıqla nəzərdən keçirilməsi;

Lətifələrin (gülməcə, bəzəmə, dodaqqaçdı, məzəm və s.) yazılı ədəbiyyat və şifahi söz sənəti janrı kimi yaranması və təkamülü;

Regional lətifələrin yayılma arealına görə təsnifatı və onların səciyyəvi özünəməxsusluğu;

Janrın epik sistemdəki yeri, sərhədləri, yaxın janrlarla (əfsanə, rəvayət, nağıl, qaravəlli və s.) oxşar və fərqli cəhətləri;

Regional gülməcə mətnlərinin məzmun, mündəricə və ideya istiqamətlərinə görə qruplaşdırılması;

Regional lətifələrin kompozisiyası, süjet quruluşu və obrazlar sisteminin müəyyənləşdirilməsi;

Mətnlərdə qorunan bədii təsvir vasitələri — poetik fiqur və ifadələrin təzahür formaları.

Aparıcı istiqamət kimi regional bəzəmələr Azərbaycan lətifələrinin tərkib hissəsi olaraq gülüş mədəniyyətinin aparıcı janrı səviyyəsində dəyərləndirilmişdir.

**Mövzunun öyrənilmə dərəcəsi.** T.Fərzəliyevin 1965-ci ildə namizədlik dissertasiyası kimi müdafiə etdiyi "Azərbaycan xalq lətifələri" və eyni adlı kitabından sonra bugünədək Azərbaycan

lətifələri barədə monoqrafik səpkidə araşdırma aparılmamışdır. Azərbaycan lətifələrinin regional xüsusiyyətləri probleminin öyrənilməsi isə ilk dəfə bu dissertasiya vasitəsilə həyata keçirilmişdir.

Azərbaycan folklorşünaslığında xalq lətifələrinin toplanması, tərtibi və nəşri işlərinə əsasən XIX yüzilliyin ikinci yarısından başlanmışdır. İlk olaraq lətifələrə SMOMPK ("QƏX TMT"─ Qafqaz əraziləri və xalqlarının təsvirinə dair materiallar toplusu) məcmuəsi daxil olmaqla sonrakı mətbuat orqanlarında ─ "Rəhbər", "Məktəb", "Dəbistan", "Tuti" və özgə satirik yönlü jurnallarda yer verilmişdir.

XX yüzilliyin birinci rübündə isə həm tərcümə, həm də orijinal lətifə kitabları işıq üzü görməyə başlamışdır. Janr haqqında Ə.Müznib, F.Köçərli, M.Mahmudbəyov, H.Zeynallı, C.Hacıbəyli kimi müəlliflər dəyərli fikirlər söyləmişlər. Geniş planda xalq lətifələrinin, o sıradan Molla Nəsrəddin, Bəhlul Danəndənin adı ilə bağlı örnəklərin nəşri və araşdırılması ilə Azərbaycan folklorşünaslarının böyük bir nəsli məşğul olmuşdur. M.H.Təhmasib, Ə.Axundov, N.Seyidov, V.Vəliyev, P.Əfəndiyev, A.Nəbiyev, S.Paşayev (Pirsultanlı), M.Həkimov, V.Hacıyev uyğun dərslik və dərs vəsaitlərində, həmçinin toplama-tərtib işlərində xalq lətifələrinin, o sıradan regional bəzəmələrin tədqi- qinə xüsusi yer ayırmışlar.

Xalq lətifələrinin nəşri və öyrənilməsi işində T.Fərzəliyev, İ.Abbaslı, B.Abdulla, Q.Paşayev, Q.Kazımov, M.Qasımlı, R.Qafarlı, F.Bayat, M.Cəfərli, Y.Səfərov, H.Əbdülhəlimov, S.Əfəndiyev, E.Talıblı, A.Əhmədli, B.Məmmədov, E.Abbasov və b. xüsusi əmək sərf etmişlər.

M.Kazımoğlu Azərbaycan folklorunda gülüş mədəniyyətinin öyrənilməsi ilə xüsusi məşğul olmuş, bu problemlə bağlı iki monoqrafiya və bir sıra elmi məqalələr nəşr etdirmişdir.

Çoxcildli "Azərbaycan folkloru antologiyası"nın bugünədək nəşr olunmuş iyirmi üç kitabında regional lətifələrə ayrıca bölmələr ayrılmışdır. Bu seriyanın ayrı-ayrı cildlərinə ön söz yazmış İ.Abbaslı, Q.Paşayev, H.İsmayılov, F.Çələbi, H.Əbdülhəlimov, Ə.Ələkbərli cildin əhatə etdiyi regionla bağlı lətifələrin səciyyəvi xüsusiyyətlərini şərh etməyə çalışmışlar.

Ədəbiyyatşünaslardan Ə.Mirəhmədov, M.Sultanov, B. Vahabzadə, N.Axundov, K.Məmmədov, İ.Ağayev, Ə.Məmmədov



(Saraclı), A.Abıyev, B.Əhmədov və b. lətifələr haqqında dəyərli mülahizələr söyləmişlər.

**Tədqiqatın elmi yeniliyi.** Regional lətifələrin ayrı-ayrılıqda hər bölgəyə məxsus səciyyəvi xüsusiyyətlərinin müəyyənləşdirilməsi və onların elmi-nəzəri süzgəcdən keçirilməsi dissertasiyada əsas aparıcı istiqamət təşkil etmişdir.

Tədqiqatda formalaşıb sabitləşmiş regional gülməcə mətnləri, onların qaynaqları, prototipləri ilə qarşılıqlı əlaqəsi problemlərinə xüsusi diqqət yetirilmişdir. Prototip başlıca olaraq iki anlamda nəzərdən keçirilmişdir: öncə lətifə mətninin qaynağı statusunda, digər yöndən isə ictimai-siyasi təbəqənin səciyyəvi elementlərinin tərkib hissəsi kimi.

Uyğun qaynaqlardan toplanmış məlumatlar əsasında bölgə əhalisi içərisində tanınmış lətifə yaradıcılarının həyatları barədə ensiklopedik məlumat verilmiş, adları ilə bağlı gülməcələrin regional özəllikləri və səciyyəvi xüsusiyyətləri aşkarlanmışdır.

Janrdaxili əlaqələrdə formalaşmış regional lətifələr də diqqət mərkəzində olmuşdur.

**Tədqiqatın metodoloji və nəzəri əsası.** Azərbaycan və keçmiş Sovetlər birliyi ölkələrindəki uyğun araşdırmalarda özünə yer almış filoloji-tarixi, statistik-təsviri, müqayisəli-tipoloji metodlardan istifadə edilmişdir. Bu baxımdan ayrı-ayrı folklor janrlarını ehtiva edən gülüş mədəniyyəti örnəklərindən, xüsusilə regional lətifələrdən müəyyən paralellər, mətnlər verilməklə qarşılıqlı müqayisələr, nəzəri təhlillər aparılmışdır.

**Nəzəri və təcrübi əhəmiyyəti.** Araşdırmada Azərbaycan folklorşünaslığında satira və yumor problemi ilə bağlı tədqiqatlara istinad edilmiş, mühüm elmi əhəmiyyət daşıyan nəzəri fikirlər ümumiləşdirilmişdir.

Dissertasiyanın nəzəri müddəalarından ali və orta məktəb dərsliklərində, dərs vəsaitlərində faydalanıla bilər. İşdən regional lətifələrin tədrisi zamanı xüsusi kurs kimi istifadə etmək təcrübi əhəmiyyətə malikdir. Dissertasiya mütəxəssislər üçün də mühüm mənbə kimi faydalıdır.

**İşin aprobasiyası.** Dissertasiya AMEA Folklor İnstitutunun "Klassik folklor" şöbəsində iddiaçının əyani aspirantlıq dövründə hazırlanmışdır. Tədqiqatın əsas nəzəri müddəaları, yenilikləri konfrans materiallarında, xaricdə və ölkə daxilindəki

elmi jurnallarda çap edilmişdir. Əsər monoqrafik planda işıq üzü görmüşdür. Bütün nəşrlər dissertasiyanın tam mətnini əhatə edir.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat göstəricisindən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**"Giriş"**də mövzunun aktuallığı, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, öyrənilmə dərəcəsi, elmi yenilikləri, nəzəri-metodoloji əsasları, nəzəri əhəmiyyəti, aprobasiyası və quruluşu haqqında danışılır.

Birinci fəsil **"Regional lətifələrin toplanması, nəşri və araşdırılması tarixindən"** adlanır.

Fəslin **"Toplama və nəşrin başlanğıc mərhələsi"** adlanan birinci bölməsində başlıqda vurğulanan məsələ öyrənilmişdir.

Folklorun özgə janrları kimi regional lətifələrin də tarixi təkamül yolu əlyazmalarından, cünglərdən başlamışdır. XIX yüzilliyin sonları və XX əsrin əvvəllərində folklor örnəklərinin toplanılması ilə məşğul olan həvəskarlar lətifələrin, o sıradan bölgə lətifələrinin yazıya alınması işində yaxından iştirak etmişlər. Ötən yüzilliyin iyirminci illərindən sonra bu sahəyə meyl geniş vüsət almış, həm də bu işə öncəki illərdən fərqli olaraq professional səviyyədə yanaşılmışdır.

XIX –XX yüzilliyin müəllim və ziyalıları tərəfindən toplanmış məhəlli lətifələr SMOMPK məcmuəsi səhifələrində də özünə yer almışdır. Təəssüf ki, bu işdə erməni olan şəxslər fərqlənmiş, bunun nəticəsində bölgə lətifələrində özününküləşdirmə, milliləşdirmə meylləri özünə yer almışdır.

Regional lətifələr XIX əsrin ikinci yarısından etibarən təlim-tərbiyə ocaqları, mədrəsə, gimnaziya, seminariya və məktəblərdə tədris üçün hazırlanmış dərs vəsaitlərinə də daxil edilmişdir. Maraqlıdır ki, "Molla Nəsrəddin", "Bəhlul", "Kəlniyyət" kimi mətbuat orqanları öz adlarını bilavasitə lətifə yaradıcılarının adlarından götürmüş, daşıdıqları adı doğrultmaq amalı ilə öz səhifələrində ara-sıra bölgə lətifələrinə də yer ayırmışlar. "Dəbistan" (1906-1908), "Rəhbər"(1906-1907), "Məktəb" dərgiləri də



lətifələrin nəşri ənənəsinə sadiq qalmışlar. "Tuti" jurnalında dərc olunmuş lətifələr öz yığcamlığı, lakonikliyi ilə seçilmişdir.

Fəslin ikinci bölməsi **"Lokal lətifələrin "folklor kitabı" nəşrləri"** adlanır. Bu işə ötən yüzilliyin əvvəllərindən başlanmışdır. Həmin tarixi mərhələdə çap olunmuş bir çox lətifə kitablarının müəllifləri Əli Abbas Müznib, Mirzə Məmməd Axundov, Mirabdullabaqi oğlu Mirəbdülmuni, Mirzə Abbas Mirzəzadə və b. bu işdə fərqlənmişlər.

Azərbaycanda pərvəriş tapan Bəhlul Danəndə gülməcələri qismən də olsa Şərq kontekstindən çıxarılaraq yerli mühitə uyğunlaşdırılmış, yeni variant və çalarlar kəsb etmişdir. Bu qəbil örnəklər ayrı-ayrı illərdə çap olunmuş folklor toplularına daxil edilsələr də ayrıca kitab şəklində Əli Abbas Müznib və N.Seyidovun tərtibi ilə elmi dövriyyəyə gətirilmişlər[1]. Azərbaycanın cənub bölgəsindən, xüsusilə Lənkəran ərazisindən toplanmış folklor toplusunda Bəhlul Danəndənin adı ilə bağlı lətifələr də özünə yer tapmışdır[2].

Ceyhun Hacıbəyli "Asiya jurnalı"nda (Paris) çap etdirdiyi (1934) Qarabağın dialekt və folkloruna həsr etdiyi araşdırmada bölgə lətifələrinə də xüsusi yer ayırmışdır. Folklor örnəklərinin regional səciyyə daşıdığını vurğulayan müəllif yazırdı: "Əgər hər hansı bir qarabağlının bəzi sözləri tələffüz etmək tərzi bir bakılıda gülüş doğurur ki, bu sonuncunun da ləhcəsi birincidə qəhqəhə doğura bilər"[3].

Bir sıra Şərq, həmçinin türk dilli xalqların lətifələrindən seçmələrin tərcümə edilərək nəşr olunması da təqdirəlayiq hadisədir. Tərtib işində Abdal Qasımın adı ilə bağlı lətifələrin ayrıca bölmədə[4] özünə yer tapması ilə sırf regional xarakter daşıyır.

---

[1] Müznib Ə. Şeyx Bəhlul lətifələri, birinci ədəd, Bakı: "Kaspi" şirkəti mətbəəsi, 1910; Bəhlul Danəndə lətifələri (toplayanı və tərtib edəni N.Seyidov, Bakı: Yazıçı, 1979

[2] Sözlü, nəğməli gecələr (toplayıb tərtib edəni Loğman Ağalı), Bakı: İşıq, 1991

[3] Hacıbəyli C. Qarabağın dialekt və folkloru (Qafqaz Azərbaycanı), fransız dilindən tərcümə edib nəşrə hazırlayan B.Ağayev, Bakı: Ozan, 1999, s.7

[4] Şərq xalqları lətifələri (tərtib edəni T.Fərzəliyev), Bakı: 1982, s. 132-149

Azərbaycan məhəlli folklorunun ərazi və coğrafi baxımdan böyük bir sahəsini çevrələyən Cənubi Azərbaycan şifahi xalq ədəbiyyatını, onun aparıcı janrlarından olan lətifə örnəklərini, bu nümunələrin nəşr tarixi və araşdırılmasını izləmək qarşıya məqsəd qoyulmadığından, burada ancaq "Arazam Kürə bəndəm" toplusunu yada salmaq məqsədyönlü sayılmışdır[1].

Regional lətifələrin toplanması, nəşri və araşdırılması baxımından öz mövzusu, yaranıb-yaşadığı, yayıldığı ərazi ilə bilavasitə bağlılığı və tarixiliyi ilə "Ayrım bəzəmələri"[2] tamamilə seçilməkdədir. Tərtib işinə ayrımların məişətindən, təsərrüfat həyatından bəhs açan rəvayət və hekayətlərlə bərabər lətifələr də daxil edilmişdir.

Birinci fəslin son üçüncü bölməsi **"Fərdi və çoxcildli nəşrlərdə məhəlli lətifələrə münasibət"** başlığı ilə verilmişdir. Regional lətifələrin toplanması, tərtibi, nəşri və araşdırılması işində ən mühüm mədəni hadisə məhəlli folklorun fundamental akademik nəşridir. Ayrı-ayrı bölgələrə həsr olunmuş bu folklor örnəklərindən ibarət çoxcildliklər "Azərbaycan folkloru antologiyası" (AFA) adlanır. AFA-dan əlavə Respublikanın ayrı-ayrı bölgələri üzrə bir sıra lətifə topluları da nəşr edilmişdir.

Şəkinin folklor örtüyü şifahi söz sənətinin ayrı-ayrı janrları ilə rəngarəng olsalar da bu mənəvi irsin fövqündə satira və yumor örnəkləri dayanır. Bugünədək 23 kitabı nəşr olunmuş çoxcildli regional AFA-nın 4 cildinin Şəki folkloruna həsr olunması bu diyarın şifahi poetik söz sənətinin üfiqlərindən soraq verir. Bir çox lətifə kitablarının müəllifi sayılan Hikmət Əbdülhəlimov ilə Sabir Əfəndiyevin bu sahədəki xidmətləri danılmazdır. Lətifələrdən ibarət özgə bir nəşr Lütfəli Vahabovun adı ilə bağlıdır. Son illərdə həyata vəsiqə almış özgə bir lətifə toplusunun "müəllifi" isə Tüfü Tahirdir.

Şəki gülüş mədəniyyəti örnəklərinin ən fundamental nəşri AFA-nın Şəki-Zaqatala regionuna həsr olunmuş kitablarının çapı ilə həyata keçirilmişdir. Antologiyanın dördüncü kitabının "Lətifələr" bölməsində məhəlli gülməcələrin yaradıcı və qəhrəmanları,

[1] Arazam Kürə bəndəm (tərtib edəni və işləyəni B.Abdullayev), Bakı: "Yazıçı", 1986, s.113-120

[2] Ayrım bəzəmələri (toplayanı V.Vəliyev), Bakı: Gənclik, 1983



söyləyici və baməzə insanlarının adları ilə bağlı örnəklər, həmçinin Layısqı və müxtəlif mövzulu lətifələr qruplaşdırılmışdır. AFA-nın VI-cı kitabı da Şəkinin folklor dünyasının zənginliyindən soraq verir. Cild uzun illər region folklorunun toplanması və nəşri ilə məşğul olmuş Hikmət Əbdülhəlimovun adı ilə bağlıdır.

Bölgənin folklor örnəklərini özündə birləşdirən AFA-nın XIII kitabı Şəki, Qəbələ, Oğuz, Qax, Zaqatala və Balakən rayonlarının şifahi söz sənəti örnəklərini nümayiş etdirir. Topluya daxil olunmuş materiallar növ və janrlar üzrə kodlaşdırılmışdır. Özünə yer tapan 80-ə yaxın müxtəlif mövzulu gülməcələr adları xatırladılan rayonların söyləyicilərindən yazıya alınmışdır. Lətifələr içərisində azlıqda qalan xalqların (avar, saxur, ingiloy, gürcü, udin, yəhudi, ləzgi) gülməcələri də özünə yer almışdır.

AFA-nın XVIII kitabı da Şəki folkloruna həsr edilmişdir. Regionun üçüncü kitabı kimi təqdim olunan bu toplunun toplayıcı və tərtibçisi H.Əbdülhəlimovdur. Topluda 550-yə yaxın lətifə özünə yer almışdır.

Yüzilliklər boyunca itirilmiş tarixi Azərbaycan torpaqlarının şifahi söz sənətində əbədiləşib yaddaş salnaməsinə çevrilmiş regional örnəklərini özündə birləşdirən başda "Qarabağ folkloru" cildi olmaqla AFA silsiləsinin bu yönlü topluları həm siyasi-ideoloji, həm də elmi-nəzəri baxımdan önəmli yer tutur.

"Qarabağ folkloru" cildinin materialları 1988-1989-cu illərdə İ.Abbaslının rəhbərliyi ilə regiona keçirilmiş ardıcıl ekspedisiyalar zamanı toplanmışdır.

Qarabağın xalq gülüşü örnəklərinin ən seçmə örnəkləri, həmçinin mahalın lətifə yaradıcılarının, yaxud da haqqlarında gülməcələr dolaşan tarixi şəxsiyyətlərin macəralarla dolu həyatlarından bəhs açan örnəklər "Qarabağın baməzə adamları" kitabında toplanmışdır. Kitabın müəllifi Bəylər Məmmədovdur.

Göyçəni "hər şey bizim üçün folklordan, folklor isə ...Göyçədən başlayır" ─ kimi səciyyələndirən Y.Qarayev qeyd edirdi ki, bu kitabdakı "..ana folklorun səhifələri, sətirləri və bu sətirlərdən uzantılar ─ yollar atla və qopuzla səyyahların mənzil başına tez çatması üçün ona yol göstərəcəkdir"[1].

[1] Qarayev Y.Göyçədən qayıdan yol folklordan keçir, AFA, III kitab, Göyçə folkloru, Bakı: Səda, 2000, s.15

"Göyçə folkloru" cildində regionda yaranıb formalaşmış məhəlli lətifələrə xüsusi yer ayrılmışdır. Sayı doxsana çatan bu örnəklər içərisində nəzmlə-nəsrin qarışığından ibarət lətifələr də özünə yer tapmışdır ki, bu tip nümunələrə məhəlli gülməcələr içərisində az təsadüf edilir.

Zəngəzur mahalında yaranıb yayılan regional lətifələr AFA-nın iki kitabında müstəqil janr kimi təqdim olunmuşlar. Birinci kitaba 90-a yaxın lətifə örnəkləri daxil edilmişdir ki, onlar öz yığcamlığı, lakonikliyi ilə seçilir. "Zəngəzur folkloru"nun II cildinin böyük bir hissəsini "Dodaqqaçmalar" başlığı ilə verilmiş hekayətlər, yumoristik rəvayətlər və xalq gülməcələri təşkil edir.

Çuxur-Sədd-İrəvan bölgəsinin regional lətifələri AFA-nın eyni adlı kitabında özünə yer tapmışdır. İrəvan xanlığının Vedibasar, Gərnibasar, Zəngibasar, Karbibasar, Sərdərabad, Sürməli mahallarını çevrələyən bu ərazilərin folklor örnəkləri içərisində lətifələr də öz məzmun və ideyalarına, yığcam və lakonikliyinə görə seçilir.

Ağbaba bölgəsində yaranıb yayılan məhəlli xalq gülüşü örnəkləri AFA silsiləsinin iki kitabında özünə yer almışdır. Birinci kitabın tərtibçisi S.Ağbabalı Azərbaycan folklorunun zəngin janrları içərisində həm də lətifələrin bu region üçün səciyyəvi olduğunu vurğulayaraq qeyd edirdi ki, Ağbaba analarımızın beşik başında söylədiyi həzin bir layla, qarlı-şaxtalı qış gecələrində danışdıqları nağıllar, lətifələr və bayatılardır. Topluda Ağbabanın müxtəlif kəndlərindən mahal üçün xarakterik olan gülməcələr yazıya alınıb xüsusi bölmədə təqdim edilmişdir.

Ağbabanın gülüş mədəniyyəti örnəkləri ilə zəngin olan ikinci kitabı AMEA-nın Folklor İnstitutunda hazırlanmışdır. Antologiyada öncə ümumi səciyyə daşıyan lətifələr özünə yer almışdır. Topluda "Gülməcələr" başlığı ilə təqdim edilmiş lətifələrdə ailə-məişət, ictimai-siyasi, tarixi məzmunlu örnəklər üstünlük təşkil edir.

AFA-nın "Dərələyəz folkloru" cildinə daxil edilmiş gülməcələrin bir qismi H.Mirzəyev tərəfindən toplanmış, qalanı isə "Sazlı-sözlü Dərələyəz" (Bakı, 2004) kitabından götürülmüşdür. Antologiyaya daxil edilmiş otuzdan artıq lətifələrin əksəriyyəti tamamilə məhəlli səciyyə daşıyır. Ermənilərin xarakterini səciyyələndirən gülməcələrə də təsadüf edilir.



Gürcüstan Respublikasının çevrələdiyi ərazidə yerləşən Borçalı mahalının folklor örnəkləri, o sıradan da regional lətifələr AFA-nın "Borçalı antologiyası" və "Borçalı-Qarapapaq folkloru" kitablarında əbədiləşdirilmişdir. Cildlərə "Elat dodaqqaçdıları" başlığı ilə xeyli lətifələr daxil edilmişdir.

Tarixi Azərbaycan torpaqlarından Dərbəndin əksəriyyəti Azərbaycan türklərindən ibarət sakinlərinin də şifahi söz sənəti — o sıradan xalq lətifələri həm yaranıb intişar tapma, həm də məhəlli koloriti qoruma baxımından yayılıb-yaşamış, zəmanəmizə qədər gəlib çatmışdır. AFA-nın "Dərbənd folkloru" kitabında özünə yer almış lətifələr içərisində klassik gülüş mədəniyyəti qəhrəmanları olan Bəhlul Danəndə ilə Molla Nəsrəddinin adı ilə bağlı nümunələr özünəməxsus yer tutmuşdur.

Regional lətifələrin maraqlı bir qolu da tarixən İraqda məskunlaşmış türkmanların gülüş mədəniyyəti örnəkləridir. Araşdırmalar belə bir qənaət doğurmuşdur ki, İraq türkmanlarının folklor irsinə də Azərbaycan şifahi söz sənətinin tərkib hissəsi kimi baxmaq tarixi həqiqətdir.

İraq türkmanlarının lətifələri yerli folklorçular tərəfindən kifayət qədər öyrənilməmiş, nəşr olunmamışdır. Bu irsin toplanması və nəşri işində əsas vəzifəni AFA-nın "İraq-Türkman" cildi yerinə yetirmişdir[1]. Tərtib işinə daxil edilmiş lokal lətifələrin əksəriyyəti öncə "Kərkük folkloru antologiyası" kitabında [2] oxuculara çatdırılmışdır. AFA-nın İraq-Türkman cildində "Lətifələr" bölməsi iki qrupa ayrılmışdır.

Azərbaycan regional lətifələrini çevrələyən çoxcildli antologiyaların ilk kitabı "Naxçıvan folkloru" toplusudur[3].

Toplama-tərtib işinə "Gülməcələr" başlığı ilə 40-dan artıq lətifə daxil edilmişdir ki, onlardan bir qismi rəvayət, hekayət, nağıl xarakteri daşıyır.

Naxçıvanın folklor örtüyünü nümayiş etdirən dəyərli işlərdən biri də son vaxtlar bölgəyə həsr olunmuş folklor çox-

---

[1] AFA, II kitab, İraq-Türkman cildi, tərtibçilər Q.Paşayev, Ə.Bəndəroğlu, Bakı: Ağrıdağ, 1999

[2] Kərkük folkloru antologiyası, toplayıb tərtib edəni və ön sözün müəllifi Q.Paşayev, Bakı: Azərnəşr, 1987, s.211-250

[3] AFA, I kitab, Naxçıvan folkloru, tərtib edənlər T.Fərzəliyev, M.Qasımlı, elmi redaktoru və ön sözün müəllifi İ.Abbasov, Bakı: Sabah, 1994

cildliklərinin nəşrə başlanmasıdır. Çoxcildliyin birinci kitabında[1] Qəssab oğlunun adı ilə bağlı xalq arasında dolaşan səkkiz lətifə özünə yer tapmışdır. AFA-nın XXIII kitabında da Ordubaddan toplanmış lətifələrə geniş yer verilmişdir[2].

Regional lətifələrin yayılıb-yaşadığı ən böyük bölgələrdən biri də Gəncəbasardır. Tarixən inzibati-ərazi adı ilə tanınan Gəncəbasar bölgəsindən toplanmış folklor örnəkləri əsasında hazırlanmış AFA-nın "Gəncəbasar folkloru" cildi regional lətifələrlə də zəngindir. Topluya müxtəlif mövzuda səksənə yaxın gülməcə daxil edilmişdir.

"Gəncəbasar lətifələri" kitabından[3] əlavə özgə bir folklor toplusunda da lətifələrə xüsusi yer ayrılmışdır. Toplama-tərtib işinə qırxa yaxın gülməcə nümunələri daxil edilmişdir ki, onlar bu və ya digər şəxslərin adı ilə bağlı söylənilən satirik lövhələrdir. Bu lətifələrin əksəriyyəti məhəlli səciyyə daşıyır[4].

Regional lətifələr içərisində S.Paşayevin həyat yolu ilə bağlı yadda qalan satirik məzmunlu hekayət və söhbətlər də özünə yer almışdır. Toplama-tərtib işinə (müəllifi Xəlil Yusifov) S.Paşayevin adı ilə bağlı 165 lətifə daxil edilmişdir.

Fərdi şəxsiyyətlərin adları ilə bağlı nəşr olunmuş kitablardan biri də Padar Yusifin lətifələridir[5]. M.Həkimovun hazırladığı bu kitaba Usuf Unusoğlu, Padaroğlu ad-titulları ilə tanınan Padar Yusifin məzəli-məzəmləri daxil edilmişdir.

Şirvan regionu folklor örtüyünün örnəkləri, o sıradan da lətifələr AFA-nın "Şirvan folkloru" cildində toplanmışdır. Topluda gülməcələrə xüsusi yer ayrılmış və buraya iyirmidən çox lətifə daxil edilmişdir[6]. Şirvan gülməcələrində "... Şirvan elinin

[1] AFA, I kitab, Naxçıvan folkloru, tərtib edənlər M.Cəfərli, R.Babayev, Naxçıvan: Əcəmi, 2010
[2] AFA, XXIII kitab, Naxçıvan örnəkləri, toplayanı A.Cəfərova, tərtib edənlər Ə.Ələkbərli, A.Cəfərova, Bakı, Elm və təhsil, 2012
[3] Gəncəbasar lətifələri, toplayanı və tərtib edəni S.Paşayev, Gəncə: Agah, 2005
[4] Paşayev S. Eldən-obadan eşitdiklərim, toplayanı və tərtib edəni S.Paşayev, Gəncə, Agah, 2006, s. 87-102
[5] Həkimov M. Padar Yusifin məzəli məzəmləri, Bakı: Maarif, 2000
[6] AFA, XI kitab, Şirvan folkloru, toplayanı S. Qəniyev, tərtib edəni H.İsmayılov, S.Qəniyev, Bakı: Səda, 2005, s. 269-280



ovqatı, yerli koloritli gülüşü ifadə olunub. Bu özünəməxsus gülüş mədəniyyəti Şirvan folklorunun ən böyük regional simasıdır"[1]. Regionun lətifələrlə zəngin özgə bir nəşri AFA-nın "Ağdaş folkloru" adlanır. Topluya daxil edilmiş lətifələr üç qrupda verilmişlər. Bunlar: Molla Nəsrəddin, Bəhlul Danəndə və müxtəlif mövzulu lətifələrdir[2].

Məhəlli (lokal) lətifələrin özünə yer tapdığı nəşrlərdən biri də AFA-nın "Muğan folkloru" cildidir. Antologiyada təqdim olunan lətifələr üç qrupa ayrılmışdır. Birinci qrupa İxinin, ikinciyə isə Salmanın lətifələri daxil edilmişdir. Hər iki şəxsiyyət bölgə ilə bağlı obrazlaşdırılmış lətifə qəhrəmanlarıdır. Cilddə özünə yer almış lətifələrin bir qismi məzmun və ideyalarına görə "Siyasi lətifələr" adlandırılmışlar. İndiyədək nəşr olunmuş AFA-nın cildlərində belə bir bölgü aparılmamışdır.

Regional lətifələrin toplanması, nəşri tarixinə bu ötəri baxış belə bir qənaət doğurmuşdur ki, son illərdə məhəlli lətifələrə çoxcildliklərdə geniş yer verilmişdir.

Dissertasiyanın **"Bölgə lətifələrinin mövzu, ideya və obrazları"** adlanan II fəsli dörd bölmədən ibarətdir.

**"Lətifələrin mövzu və mündəricə özəllikləri"** adlanan birinci bölmədə bu qrup gülməcələrin ana xəttini müəyyənləşdirən ailə-məişət, siyasi-ideoloji düşüncə tərzi, tarixi hadisə və tanınmış kimsələrin həyatı ilə bağlı məlumatlar, dini-mistik mahiyyət daşıyan əhvalatlar diqqət mərkəzində olmuşdur.

Ailə-məişətdə özünə yer tapan çatışmamazlıqların tənqidi, baş verən qüsurların ifşası bu mövzuda formalaşmış lətifələrdə gülüş hədəfinə çevrilmişdir. Bu isə, hər şeydən öncə, etnik mənəvi yaddaşdan, xalqın düşüncə tərzindən qidalanaraq gələn tarixi ənənənin axarı kimi diqqəti cəlb edir.

Mövzu baxımından regional lətifələrin bir qismi də dini mahiyyət daşıyır. Müşahidələr təsdiq edir ki, dini məzmunlu bəzəmələr əhali içərisində geniş pərvəriş tapmamışdır. Bunun da təbii səbəbləri vardır. Çünki, hər şeydən öncə, lətifə daşıyıcıları dini tapınmalara daha çox meylli olmuşlar.

[1] Qəniyev S. Şirvan folklor mühiti, Bakı: Ozan, 1997, s.82
[2] AFA, XVI kitab, Ağdaş folkloru, toplayıb tərtib edən İ.Rüstəmzadə, Bakı: Səda, 2006, s.441-454

Ayrı-ayrı tarixi hadisələr və real tarixi şəxsiyyətlərin başlarına gələn macəralar əsasında da onlarla regional lətifələr yaranmışdır.

Mövzu və ideyalarına görə regional lətifələrin böyük bir qismini siyasi lətifələr təşkil edir. Bu qəbil lətifələrdə Sovet dönəmində partiya sıralarına keçməyin mahiyyəti, idarəçilik orqanlarının "fəaliyyəti", özbaşınalığı ifşa hədəfinə çevrilmişdir.

Siyasi lətifələr təsdiq edir ki, hər bir ictimai-siyasi quruluşun və onun hakim ideologiyasının fəaliyyətdə olduğu tarixi kəsimin gülməcə örnəkləri yaranmış və onların böyük əksəriyyəti xalq yaddaşında qorunmuş, dildə-ağızda dolaşmış və təbii səbəblər üzündən işıq üzü görməmişlər.

İkinci fəslin ikinci bölməsi **"Obrazlar sistemi və onların səciyyəsi"** adlanır. Regional lətifələrin obrazlar fonduna ümumi baxış belə bir mənzərə yaradır ki, ayrı-ayrılıqda hər bölgənin özünəməxsus obrazlar sistemi mövcuddur. M.Həkimov müxtəlif bölgələrdə, elat arasında öz baməzələri, bəzəmələri ilə şöhrət qazanan lətifəçilərdən söz açaraq bu şəxsiyyətləri xatırladır: səlyanlı Mirzə Baqi, şəkili Hacı dayı, Ayrım Tağı, Qarabağdan Pişik Rəhim, Noxud İsgəndər, Məşədi Abbas, Saqqal Qəhrəman, Tula Tağı, Curu Fərrux, Cahil Abbas, Abırlı Əyyub, Dəvə Sadıq, Köşək Aslan, Kar Hilal, Cin Səlbi, Xatınbəyli Bəyim, Pendir Əkbər, Qəzet Mələk, Şapıtdı Xanpəri, Kor Xanım, Qır İsmayıl, Zırı Dadaş, Ları Səfər, Zağar Həsən, Hırt Yusif, Biçoy İsa, Şunquruqlu Mədəd, Mollaoğlu Mahmud və b. Daha sonra müəllif qeyd edir ki, Respublika bölgələri hesabına sayını artıra biləcəyimiz lətifəçilər çoxdur[1].

Respublikamızın ayrı-ayrı bölgələrindən toplanıb nəşr edilmiş lətifə örnəklərinə diqqət edilərsə onlarda bu və ya digər formada qorunan zəngin personajlar qalereyasını daha yaxından müşahidə etmək olar.

Lokal Naxçıvan lətifələrinin obrazlar sisteminin bir qismi tarixi şəxsiyyətlərin adları ilə bağlı örnəklərdir. İkinci qrup gülməcələrin qəhrəmanları bölgənin Mirabdulla, Abasqulu kişi, Həzrətqulu, Məhərrəm əmi kimi baməzə insanlarıdır. Lətifələrin

[1] Həkimov M. Padar Yusifin məzəli məzəmləri, s. 6-7



bir qismində isə Cəlil Məmmədquluzadə, Hüseyn Cavid kimi ünlü şəxsiyyətlər obrazlaşdırılmışlar.

Qarabağ lətifələri ilə Avropa oxucularını tanış etmək istəyən Ceyhun bəy Hacıbəyov bir sıra Şuşa baməzəçilərinin adlarını çəkmiş[1], Bəylər Məmmədov isə bu siyahını daha da genişləndirmişdir[2].

Regional Şəki lətifələrini yalnız gülüş qəhrəmanları: Hacı dayı, Mirzə Abdullacabbar, Maşax İsfəndiyar, Qabardin oğlu Mənsur və b. adları ilə bağlamaq düzgün deyildir. Şəkinin kəndlərində onlarla lətifə qəhrəmanları var. Şirin əminin (Dəhnələr), Yeşil dayının (Baş Göynük kəndi), Dekan Tofiqin, Baba oğlu Əhmədin (Baş Laysqı kəndi), Qolya Bəhrəmin, Məryəm oğlu Hasanın (Qaraqoyunlu kəndi) və b. gülməcələri dillər əzbəridir.

Ayrımların adı ilə bağlı gülməcələr də külli miqdardadır. Onlar yalnız bir bölgəni deyil, bir neçə regionu əhatə edir.

Regionla bağlı obrazlar sisteminə görə özünəməxsus lətifə qəhrəmanları olan Dərələyəz bölgəsində Surxay kişi, Xanımalı kişi (baməzəlik, hazırcavablıq) kimi səciyyəvi xarakterlərinə görə seçilmişlər. Gülməcə personajları ilə yanaşı bölgədə Gülmalı oğlu Usub, Fərəculla, Xanmaca arvad, Şiraslan, Ayıboğan Oruc, İman kimi baməzə, yumorlu lətifə söyləyiciləri (yaxud, qəhrəmanları) xalq içərisində sayılıb-seçilən şəxsiyyətlərdən olmuşlar.

Qaraqoyunlu bölgəsinin gülməcələrindən bəlli olur ki, bu örnəklərin Hambaloğlu, Qələndər, Abdulla kişi, Qara kişi, Nadir kişi, Qurban kişi, Ramazan kişi, Oğru Nəsib, Hacı Məhəmməd, Yığan Usuf və b. kimi onlarla obraz və qəhrəmanları vardır.

Ağbaba mahalı lətifələrinin yaradıcı-qəhrəmanlarından Cinni Söyün, Mahmud dayı, Toyçu Xəlil, Çoban Cəlal, Rüstəm kimi baməzə, hazırcavab nümayəndələri söylədikləri, yaxud iştirakçısı olduqları bu gülməcələrdə bir sistem halında çıxış edirlər. Maraqlıdır ki, onların adları ilə bağlı olan lətifələr öz adları ilə də təqdim edilmişlər.

Gəncəbasar lətifələrinin obrazlar sistemini ayrımlar və onların adı ilə bağlı bəzəmələr təşkil edir. Bununla bərabər,

[1] Hacıbəyli C. Qarabağın dialekt və folkloru (Qafqaz Azərbaycanı), s.20-23
[2] Məmmədov B. Qarabağın baməzə adamları (Ədəbi portretlər, lətifələr), Bakı: Yazıçı, 1992, s.7

regionda xalq içərisində öz müdrik kəlamları, yumorlu söyləmələri ilə ad-san qazanmış onlarla lətifə iştirakçıları vardır ki, onların da hər biri ayrı-ayrılıqda mənəvi gülüş doğuran səciyyəvi xarakterləri ilə seçilirlər. Bölgədə keçmişdə yaşayıb-yaratmış lətifəçilərlə yanaşı Sovet dönəmində Unnu Ağca, Dabravol Qasım, Qaraxanlı Künə Dəmir (Tovuz), Karağan Usub (Daşkəsən), Hıçqırıqlı Məhəmməd (Tovuz), Qarğa Məcid (Tovuz) kimi onlarla lətifə yaradıcıları əsasən məhəlli səciyyə daşıyan gülməcələrin müəllifi kimi şöhrət tapmışlar.

Zəngəzur bölgəsindən toplanmış lətifə örnəkləri aydın edir ki, bu janrın əsas qəhrəmanlarını Molla Nəsrəddin və Bəhlul Danəndə ilə yanaşı Şah Abbas, Kəlniyyət, Molla Cavad və "kənd kişiləri" təmsil edirlər.

Qəbələ, Oğuz, Qax, Zaqatala, Balakən bölgələrindən toplanmış lətifələrin də yerli koloritlə, ovqatla yüklənmiş özəllikləri və birbaşa yerli zəminlə bağlı olan obrazlar sistemi mövcuddur. Bu surətlər içərisində dünyanın mistik korifeyləri, həmçinin ayrı-ayrı tarixi kəsimlərdə yaşamış tarixi şəxsiyyətlər də özünə yer almışdır.

Özünəməxsus obrazlar silsiləsi olan Şirvan lətifələrinin bir qismi məlum-məşhur kimsələrin — Seyid Ağanın, Lahıcda yaşayan müdrik baməzəçilərin, el şairi Canan Seyran oğlunun və b. adları ilə bağlıdır. Şirvan olduqca geniş bir ərazini çevrələdiyi üçün bu ərazilərdə yayılıb yaşayan lətifələr də öz mövzu əlvanlığına görə seçilirlər.

İrəvan çuxurunda dolaşan regional lətifələr içərisində əsas yeri məhəlli örnəklər tutur. Bu kimi lokal lətifələrin qəhrəmanları, yaradıcı və söyləyiciləri bölgənin ovqatı, həyat tərzi, təsərrüfat həyatı, mənəvi dəyərləri ilə bağlı milli koloritlə zəngin olan personajlar sistemi ilə fərqlənir.

Muğan bölgəsindən toplanmış lətifələrin aparıcı xəttini siyasi gülməcələr təşkil edir. Dərbənd bəzəmələri içərisində isə yumor və satiranın aparıcı istiqaməti lokal xarakterli örnəklərdə özünə əsaslı yer tapmış, bununla da özünəməxsus obrazlar sistemi formalaşmışdır.

Regional lətifə obrazları sisteminə ümumi baxış belə bir qənaət doğurur ki, ayrı-ayrı bölgələrə məxsus gülməcə qəhrəmanları (surətləri) vahid Azərbaycan ərazisinin gülüş ustalarının zəngin personajlar aləminə malik olduğunu nümayiş etdirir.



II fəslin **"Lətifə yaradıcıları: şəxsiyyətləri və bəzəmələrinin ideya-məzmun özəllikləri"** adlanan 3-cü bölməsində bir baməzəçi kimi camaat içərisində tanınan yaradıcı — söyləyici— ifaçı insanlar haqqında söz açılır. Onlar hər şeydən öncə iki funksiyanı yerinə yetirmişlər: bir tərəfdən düzüb-qoşduqları gülməcələrin mahir söyləyicisi — ifaçısı kimi çıxış etmiş, digər tərəfdən isə öz repertuarlarında sələfləri tərəfindən yaradılmış satirik örnəklərin daşıyıcısı kimi fəaliyyət göstərmişlər.

Ayrı-ayrı regionlarda tanınmış yumor ustalarının hər birinin xarakterinə, peşəsinə, davranışına, ictimai-siyasi durumuna görə ayamaları olmuş, ilk növbədə bu ayamalar və onların məna çalarları gülüş doğurmuş, söylənilən lətifələrin formalaşması və deyim tərzində mühüm əhəmiyyət kəsb etmişdir. Onlar haqqında ayrı-ayrılıqda ensiklopedik məlumat verilmiş, yaradıcılıqlarının aparıcı xəttini təşkil edən lətifələri ideya-məzmun baxımından qruplaşdırılıb elmi-nəzəri təhlildən keçirilmişlər.

II fəslin son — dördüncü bölməsi **"Lətifələrin yayılma arealına görə təsnifatı və onların mövzu çalarları"** adlanır. Ölkə ərazisinin elə bir bölgəsi, rayonu, kəndi yoxdur ki, oranın özünəməxsus lətifələri olmasın. Bu mənada regional lətifələrin yayılma arealına görə təsnifatını aparmaq mümkündür: 1)Kütləvi lətifələr; 2) Məhəlli (lokal) lətifələr.

Kütləvi lətifələr bəlli bir bölgədə formalaşsalar da geniş vüsət alıb əksər ərazilərdə yayılıb-yaşamış, yeni variant və çalarlar kəsb etmişlər. Hər bir bölgənin gülməcə yaradıcıları bu örnəklərə məhəlli don geydirmiş, onu yerli zəminə xas koloritlə bəzəmişlər. Bu mənada Bəhlul Danəndə və Molla Nəsrəddinin adları ilə bağlı lətifələr əksər regionlarda yayılsalar da onlar dolaşdığı ərazi ilə bağlı yeni çalarlarla, əlamətlərlə, epizod və süjetlərlə zənginləşdirilmişlər.

Kütləvi lətifələrdə elə süjet və mövzulara təsadüf edilir ki, onlar böyük bir ərazini çevrələyir — bir ucu Azərbaycandan başlayıb digər qütbü İraq türkmanlarına qədər gedib çıxır.

Yayılma arealına görə ikinci qrup lətifələr müəyyən ərazi çərçivəsində yayılıb kütləvi gülməcələrə nisbətən daha çox yerli xarakter daşıyırlar. Bu lətifələr də məzmun və mündəricə

baxımından olduqca zəngin çalarlara malikdir. Onlarda keçmişin ifşası ilə yanaşı yeni dövrün tənqidi də üstün mövqedə dayanır.

Ayrı-ayrı regionlarda fəaliyyət göstərmiş bəlli bəzəmə-çilərlə yanaşı Şəki bölgəsinə məxsus Hacı dayı (Feyzi oğlu İlyas), Mirzə Abdulcabbar, Maşax İsfəndiyarın adları ilə bağlı yaranmış satirik örnəklər də sırf məhəlli səciyyə daşıyırlar. Çünki, hər şeydən öncə, bu lətifələr həmin ərazidə yaşayıb-yaratmış real tarixi şəxsiyyətlərin düzüb-qoşduqları satirik-yumoristik bədii lövhələrdir. Bu qəbil lətifələrin yayılma çevrəsi yalnız formalaş-dığı arealla məhdudlaşmışdır. Bu mənada Şəkinin Laysqı kəndinin gülməcələri bölgə lətifələri içərisində ərazi ilə bağlı əlamətləri ilə seçilir. Bu da onların həmin kənddə yaranıb yayıldığını aşkar edir.

Azərbaycan regional lətifələrinin tərkib hissəsi olan İraq – Türkman gülməcələrində də mövzu və ideya, süjet və epizod baxımından yadda qalan onlarla məhəlli (lokal) lətifələr yayıl-mışdır. Avamlığın, qanmazlığın təzahürü onlarla lətifələrdə ümumiləşdirilib gülüş hədəfinə çevrilmişdir.

Məhəlli lətifələrdə ən çox avamlıq, sadəlövhlük gülüş hədəfinə çevrilmişdir. Bu baxımdan Ayrım bəzəmələri öz məz-mun dolğunluğu və gözlənilməz sonluqları ilə seçilir.

Ötən yüzilliklərdə yaranıb-yayılmış lətifələrin müəyyən qismi öz müəlliflərini itirdikləri kimi, bu ənənəni davam etdirən müasir lətifələrin yaradıcıları da bir şəxsiyyət kimi unudulub anonimləşmişlər.

**“Məhəlli lətifələrin poetik özünəməxsusluğu”** adlanan III fəsil üç bölməni ehtiva edir.

Birinci bölmə **“Lokal lətifələr gülüş mədəniyyətinin — xalq satirası və yumorunun tərkib hissəsi kimi”** adlanır.

Regional lətifələr tarixən ayrı-ayrı bölgələrdə yaranıb formalaşdığı üçün xalq içərisində yerli koloritlə bağlı müxtəlif istilahlarla yayılıb yaşamışdır. Bu söz-termin-anlamlar daha çox yarandığı ərazinin insan psixologiyası, ovqatı, canlı xalq danışıq dilinin zənginliyi və orijinallığı ilə müəyyən olunur: lətifə, gülməcə, bəzəmə, məzəli məzəm, elat dodaqqaçdıları, ağız icadları, baməzələr, məzəli ixtilətlər və s. adlarla xalq içərisində dolaşan şifahi söz sənətinin — ümumilikdə götürülərsə, gülüş mədəniyyətinin tərkib hissəsi olub bir janr kimi daha çox lətifə isilahı ilə tanınmaqdadır.



Xalq lətifələrinin, o sıradan regional lətifələrin mayasında xalq gülüşü dayanır. Gülüş isə cürbəcür olur. “Zarafatdan doğan yumoristik gülüş, kinayəli gülüş, nifrətdən şölənənən öldürücü gülüş”[1].V.Y.Propp gülüşün bu formalarının çalarlarını daha da genişləndirmişdir: xeyirxah gülüş, acı (kinayəli) gülüş, mərasim gülüşü, şəfahət (işrət) gülüşü və s[2]. Mərasim gülüşünün ayrılıqda şərhinə çalışan Dm. Moldovski göstərir ki, ictimaiyyətin müraciət etdiyi folklordakı gülüş daha çox keçmiş həyat tərzindən uzaqlaşmaq mahiyyəti daşııyır. Qəhrəman keçmiş dünyaya səyahəti haqqında söz aça bilir. O, həmin dünyaya nəinki inam bəsləyir, həm də ona skeptik münasibət göstərir[3].

“Axmaqlıq, doğru, düzgün müşahidə etmək qabiliyyətinin çatışmamazlığı” gülüş doğuran əsas amillərdəndir. Biz dəfələrlə görmüşük ki, gülüş hər hansı bir gizli çatışmamazlıqların, eybəcərliklərin aşkarlanması zamanı gözlənilmədən ortaya çıxır. Nə zaman ki, çatışmamazlıq yoxdur və onu görmürük, onda biz gülmürük”[4].

Məhəlli lətifələrin mahiyyətində dayanan xalq gülüşü, xalq satira və yumoru folklorun əksər janr və növlərində geniş yer alsa da regional bəzəmələrdə zirvə nöqtəsinə yüksəlmiş, onun genetik mahiyyətinin zənginləşməsində əhəmiyyətli rol oynamışdır. O da bəllidir ki, yumor və satira şifahi söz sənətində öz forma və məzmununa görə rəngarəng mahiyyətdə özünü göstərir. Ümu-miyyətlə, yumor və satiraya qiymət verən Y. Boryev yazmışdır: “Yumor-satira. Gülüşün qütbləri: Onların arasında isə komikliyin bütün çalarları dayanır[5]. Komikliyin bütün bu əlamətləri bölgə lətifələrində də qorunmuşdur.

Mahiyyət etibarilə komikliklə gülüşün arasında fərqli, seçilən cəhətlər də mövcuddur. Belə ki, “komiklik gülüşdür, ancaq bütün gülüşlər komiklik deyil. Gülüş həmişə fərdi münasibətdir,

---

[1] Vahabzadə B. Şəki gülməcələri, Şəki lətifələri, Bakı: Yazıçı, 1987, s.5
[2] Пропп В.Я. Проблемы комизма и смеха, М., Искусство, 1976, с.34
[3] Молдовский Дм. Русская народная сатира, Л., Просвещения, 1967, с. 207
[4] Пропп В.Я. Проблемы комизма и смеха, с.39
[5] Бореев Ю. Комическое, М., Изд-во «Исскуство»; 1970, с.79

ancaq hər dəfə ictimai deyil. "Özgə sözlə, "...komiklikdən daha genişdir. Komiklik gülüşün gözəl bacısıdır"[1].

Regional lətifələr semantik-struktur tamlığına görə "...müstəqil bədii miniatürdür, epik təhkiyə yolu ilə nitq dialoqudur, tipologiyasına görə xalq epizmindən, genezisinə görə ritualdan, mifdən, xalq oyun, tamaşa, söyləmə, nəğmə örnəklərindən qaynaqlanır. Təkmilləşmədə onu yaradan və formalaşdıran köhnədən qopur, janr muxtariyyat qazanır"[2]. Bu qaynaqlanma və bəhrələnməni folklorun əksər janrlarında müşahidə etmək mümkündür. Çünki satirik məsəllər, nağıllar, bayatılar, yumorlu lətifələr, qəhrəmanlıq və məhəbbət dastanlarımızdakı komik epizodlar milli sosial gülüşün varlığını, qədimliyini nümayiş etdirən tipik örnəklərdir.

Regional lətifələrdə gülüşün varlığı ayrı-ayrılıqda hər bir örnəyin daxili strukturundan doğur. Yumor və satiranın gücü də bu quruluşda özünü gərəyincə nümayiş etdirə bilir. Özgə sözlə, komizmin formalarından olan yumor ifşaya məruz qalan subyekti oyatmaq, onu tərbiyələndirmək məqsədi güdür. Yumor gülüş mədəniyyətinin əsas atributlarından biri kimi əsasən öz subyektini tərbiyələndirməyə, ondakı çatışmamazlıqları və neqativ halları aradan qaldırmağa, nəticədə isə onu mənəvi baxımdan yetkinləşdirməyə, tamamilə ideala uyğunlaşdırmağa çalışır.

Məhəlli (lokal) lətifələrin təsir dairəsi, onun dinləyicidə oyatdığı əhval-ruhiyyə, xoş ovqatın yaranması bilavasitə söyləyicinin məharətindən asılıdır. Çünki lətifəni hər hansı çap mətnindən oxumaq onu söyləyəndən dinləmək qədər insana mənəvi və estetik zövq vermir. Burada söyləyici tərəfindən edilmiş hər bir jestin, pantomim hərəkətin böyük mənası var və o danışılan örnəyin daha dərindən qavranılması və mənimsənilməsinə yaxından kömək edir. Belə ki, "Mahir lətifə söyləyiciləri nəticəyə yaxınlaşdıqca dodağının, üzünün, əzələlərinin hərəkətləri ilə dinləyicini hazırlaya bilir. Lakin burada aforizm şəklində olan son gözlənilməz nəticənin vaxtında tələffüzü əsas şərtdir"[3].

---

[1] Бореев Ю. Комическое, с. 11
[2] Yenə orada, s.20
[3] Kazımov Q. Bədii ədəbiyyatda komizm üsulları, Bakı: Maarif, 1987, s.154



**"Janrdaxili əlaqədə formalaşmış lətifələr"** başlıqlı ikinci bölmədə lətifə-nağıl, lətifə-atalar sözü, lətifə-tapmaca, lətifə-rəvayət və əksinə, bu mövzulu gülməcələr həmin janrlarla qarşılıqlı əlaqə və təmasda izlənilmişdir. Bu qəbil örnəklər içərisində mövsüm və mərasimlərlə bağlı lətifələr də özünə yer almışdır.

Lətifələrdə sınamalara da təsadüf edilir. Belə örnəklərin birində qeyd olunur ki, inama görə "...sacı yerə qoyanda və ocaq daşlarını çevirəndə cinlərin balaları yanır". "Yerə qaynar su tökməzlər, günahdı. Deyilənə görə töksən, torpaq əyəsini yandırarsan, o da qəzəblənib sənə nə isə bir sədəmə toxundurar" — inamı İslamiyyətin əlavəsindən sonra yerə isti su atanda gərək "bismillah" deyəsən ki, cinlər qaçsın. Yoxsa cinin balasını yandırarsan, sənə zərər toxundurar" inamının ilk variantı regional lətifələrdə daha çox qorunmuşdur.

Nağılların tərkibində lətifə motivlərinə təsadüf olunduğu kimi, məhəlli gülməcələrdə də nağıl ünsür və epitetlərindən istifadə edilmişdir.

Rəvayət və lətifələrin qovuşmasından yaranmış gülməcələr də vardır ki, onlar janr baxımından daha çox rəvayəti xatırladırlar. Lətifəli rəvayətlər içərisində aşıq rəvayətlərinə də təsadüf olunur.

Regional lətifələrlə atalar sözü və məsəllərin qarşılıqlı şəkildə izlənilməsi müəyyən edir ki, bir sıra bəzəmələrin nəticələrindən başlayan yol atalar sözü və məsəllərə doğru gedir. Bir sıra lətifələrin sonluqları isə daha çox uzun illərdən bəri formalaşmış atalar sözləri ilə tamamlanır. Bu isə lətifəni daha məntiqi, daha çox inandırıcı şəklə salır. Atalar sözü və məsəllər əsasında formalaşmış lətifələr yaxud, lətifələr əsasında yaranmış hikmətli sözlər çoxdur.

Məhəlli lətifələr içərisində tapmacalı lətifələrə təsadüf edilsə də onlar azlıq təşkil edir. Regional lətifəli tapmacaların içərisində obrazlaşdırılmış onlarla məhəlli qəhrəmanlar vardır. Künə Dəmirin, Dabravol Qasımın, Kəlniyyətin və b. adları ilə bağlı onlarla tapmacalar yaranıb yayılmış, dinləyicilər içərisində rəğbətlə qarşılanmışdır.

III fəslin son üçüncü bölməsi **"Poetik fiqur və bədii xüsusiyyətlərin təzahür formaları"** adlanır. Regional lətifələrə

ümumi baxış təsdiq edir ki, onlar poetik fiqurlarla da zəngindirlər. Sözün məna çalarlarından, siqlət və yükündən yerində, məqamında istifadə etmək bəzəmənin mahiyyətinin açıqlanmasında əsaslı rol oynamışdır. Müftə yeyib-içməyi sevən bir şəkilidən soruşduqda ki, ən çox sevdiyi söz hansıdır, o belə cavab verir: "Restoranda doyunca yeyib-içdikdən sonra ofisiantı şot verməyə çağıranda onun dediyi "çatıtdı" sözü". Yaxud, sözün və səsin ifadə qüdrətindən istifadə özgə bir lətifədə belə mənalandırılmışdır. Bir molladan soruşduqda ki, səslərdən hansı yaxşıdır, o, bu sualı belə açıqlayır: Əzan səsi, qazan səsi, bizə gedək səsi. Göründüyü kimi, sözün işlənmə məqamına görə lətifədə bir-birindən seçilən fikir, məna çalarları yaranır.

Canlı xalq danışıq dili üzərində qurulmuş regional lətifələrdə yerli zəminlə bağlı ləhcə xüsusiyyətləri və frazeoloji birləşmələrdən faydalanma əhəmiyyətli rol oynamışdır.

Sözün, ifadənin poetik qüdrətindən istifadə nəsr-təhkiyə dilinin daxili qafiyələnməsində də mühüm rol oynamışdır. Ağbabalı Əhməd kişidən soruşanda ki, neçə uşağın var, o bu suala cavabında sözün məna çalarlarından belə faydalanmışdır: "— Altı: birinin adı Alı, rəngi qarğıdalı; birinin adı Nəzakət, Allah verdiyinə bərəkət, hər gün yediyimiz təzə ət; birinin adı Fazil, biri də hazır".

Regional lətifələrdə bədii təsvir vasitələri kimi folklorun ilkin (erkən) janrlarından da istifadə edilmişdir. Obrazın daxili aləmini açmaq, personajların uzaqgörənliyini, qabiliyyətini, bacarığını nümayiş etdirmək baxımından yozmalardan faydalanma lətifələrə poetik kolorit gətirmiş və onların yadda qalmasında mühüm rol oynamışdır.

Bölgə lətifələri içərisində elə örnəklər də vardır ki, onun əsas məğzi və gülüşün istiqamətləndirilmiş hədəfi lirik boyalarla təcəssüm etdirilir.

Elə lətifələr də vardır ki, onların təhkiyə hissəsi daha çox süjetə giriş, başlanğıc səciyyəsi daşıyır. Əsas fikir, ideya və məzmun lirik dillə ifadə edilir. Özgə sözlə, poetik üslub lətifəyə əlvanlıq, estetik ovqat bəxş edir.

Azərbaycan xalqının mentalitetinə yad olub, lakin məişətdə ara-sıra təsadüf edilən çox ərliliyin ifşası da nəzmlə tamamlanan



bəzəmələrdə özünə yer tapmışdır. Bu qəbil lətifələrdə gəlin-qaynana münasibətlərinə də toxunulmuşdur.

Əmək mövzulu məhəlli lətifələrdə də ritmik lirik boyalardan geniş istifadə edilmişdir. Lirik-poetik parçaların söylənilən lətifələrin məzmununa — ətinə, canına hopdurulması, ümumiləşdirilmiş nəticələr kimi səsləndirilməsi klassik lətifələrə nisbətdə regional gülməcələrdə özünə yer tapmış xarakterik xüsusiyyətlərdəndir.

**"Nəticə"**də tədqiqatın əsas müddəaları ümumiləşdirilmiş və aşağıdakı qənaətlər əldə olunmuşdur:

Xalq lətifələri və onun ayrı-ayrı qollarını təşkil edən bölgə lətifələri Azərbaycan gülüş mədəniyyətinin — xalq satira və yumorunun aparıcı qolu kimi zəngin tarixi təkamül yolu keçmiş, kəmiyyət və keyfiyyət baxımından yeni çalarlar qazanmışdır. Bu təkamül yolu əbədiləşdirilmiş qaynaqlardan — əlyazmalarından, cünglərdən, toplama materiallarından başlanmışdır;

Regional lətifələrin mahiyyətində, məğzində dayanan xalq gülüşü, xalq satrira və yumoru folklorun əksər janr və növlərində geniş yer alsa da bölgə bəzəmələrində zirvə nöqtəsinə yüksəlmiş, onun genetik mahiyyətinin zənginləşməsində əhəmiyyətli rol oynamışdır;

Müəyyən olunmuşdur ki, məhəlli (lokal) gülməcələrin təsir mexanizmi onun dinləyicidə oyatdığı əhval-ruhiyyə, xoş ovqatın yaranması bilavasitə söyləyicinin məharətindən, qabiliyyətindən doğmuşdur;

Obrazlar sisteminə ümumi baxış Azərbaycan ərazisinin gülüş ustalarının zəngin personajlar aləminə malik olduğunu nümayiş etdirir;

Yayılma arealına görə regional lətifələrin, həmçinin janrdaxili əlaqədə formalaşmış gülməcələrin təsnifatı aparılmışdır;

Lətifələrin formalaşmasında istifadə edilmiş poetik fiqurlar və bədii təsvir vasitələri məzmun və ideyanın aşkarlanmasında əhəmiyyətli rol oynamışdır.

**Dissertasiyanın əsas məzmunu müəllifin ölkə daxilində və xaricdə nəşr olunmuş aşağıdakı kitab, tezis və məqalələrində öz əksini tapmışdır:**

1. Azərbaycan lətifələrinin regional xüsusiyyətləri// Bakı, Nurlan, 2011, 160 s.
2. Azərbaycan regional lətifələrinin toplanması və nəşrinin başlanğıc mərhələsi⁄⁄ Elmi axtarışlar, II toplu, 2010, s. 160-165
3. Elat lətifələri⁄⁄ Folklor və etnoqrafiya, № 2, 2010, s. 75-90
4. Məhəlli (lokal) lətifələrin "Folklor kitabı" nəşrləri ⁄⁄ Filologiya məsələləri, № 4, 2010, s. 524-530
5. Müasir mərhələdə regional lətifələrin nəşri və araşdırılmasına dair⁄⁄Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, XXXII , 2010, s. 63-74
6. Regional Azərbaycan lətifələrinin toplanması və nəşri tarixindən (başlanğıc dövrü) ⁄⁄ Azərbaycan Milli Elmlər Akademiyası aspirantlarının elmi konfransının materialları, may, 2010, s. 484-486
7. Regional lətifə yaradıcıları: şəxsiyyətləri və bəzəmələrinin ideya-məzmun özəllikləri, Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər⁄⁄ XXXIII kitab, 2010, s. 101-118
8. Regional lətifələrin poetik özünəməxsusluğu: a) xalq satira və yumorunun tərkib hissəsi kimi; b) obrazlar sistemi⁄⁄ Dədə Qorqud, III, 2010, s.118-128
9. Regional lətifələrin yayılma arealına görə təsnifatı və onların mövzu çalarları⁄⁄ Dədə Qorqud, IV, 2010, s. 112-121
10. Regional lətifələrin mövzu və mündəricə özəllikləri ⁄⁄ Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, XXXV kitab, 2011, s. 74-86
11. Regional lətifələrdə poetik xüsusiyyətlərin təzahür formaları⁄⁄ Folklor və etnoqrafiya, № 1, 2011, s. 88-93
12. Janrdaxili əlaqədə formalaşmış lətifələr ⁄⁄ Motif Akademi Halkbilimi Dergisi, İstanbul, № 1, 2011, s.100-108
13. Политические анекдоты в азербайджанском фольклоре ⁄⁄ Материалы международной научно-практической конференции «современная тюркология: направления развития и актуальные проблемы», 17-18 мая, Алматы, 2011, с.234-237



14. Азербайджанские региональные политические анекдоты ⁄⁄ Казахский Национальный Университет имени Аль-Фараби, Хабаршы Вестник, серия филологическая, №3 (133), Алматы, 2011, с. 339-342
15. Azərbaycan regional folkloru və dialektinin Avropada nəşri və yayılmasında Ceyhun bəy Hacıbəylinin rolu⁄⁄Azərbaycan folkloru Avropa sivilizasiyası kontekstində mövzusunda elmi-praktiki konfransın materialları, Bakı, Nurlan, 2012, s. 179-185

**С.И.АББАСЛЫ**

## РЕГИОНАЛЬНЫЕ ОСОБЕННОСТИ АЗЕРБАЙДЖАНСКИХ АНЕКДОТОВ

**Резюме**

Впервые в монографическом плане привлекаются к исследованию народные анекдоты и составляющие их отдельные региональные анекдоты в качестве составной части азербайджанской культуры смеха ─ народной сатиры и юмора.

Эти образцы сатирического искусства слова более всего известны под термином «анекдот», которые широко распространены в отдельных регионах Азербайджана. Они приобрели отличительные друг от друга свойства своими локальными (местными) особенностями. Этот традиционный творческий процесс, известный под такими названиями как «бязама», «гюльмаджа», «мязам», «додагтачды», «агыз иджадлары», «бамаза», «мазали ихтилатлар» и т.д. и сегодня продолжает зарождаться, распростроняться и жить. Этот творческий мир составляет основную суть исследования.

Во введении исследования обобщены степень разработки темы, ее актуальность, научная новизна и практическое значение.

В первой главе «Из истории собрания, издания и исследования региональных анекдотов» прежде всего был прослежен начальный этап собрания и издания жанра. В последующие годы появились издания «фольклорной книги» локальных анекдотов. Это литературно-культурное событие на основе богатого фактического материала было рассмотрено в хронологической последовательности. Работы по собранию, изданию и исследованию, которые прошли исторический эволюционный путь индивидуальными и многотомными изданиями достигли своего апогея, сыграли важную роль в обогащении народной культуры смеха. И этот этап нашел свое широкое научно-теоретическое решение.

Вторая глава исследования называется «Темы, идеи и образы региональных анекдотов». Здесь анализированы особенности темы и содержания региональных анекдотов, определена система их образов и их специфические особенности. Личности создателей-сказителей локальных анекдотов, идейно-содержательные особенности как ведущее направление было в центре внимания исследования. Проведена классификация региональных анекдотов по ареалам распространения.

В последней третьей главе «Поэтическое своеобразие локальных анекдотов» региональные анекдоты в качестве составной части культуры смеха народной сатиры и юмора были подвергнуты научно-теоретическому анализу. В работе были привлечены всестороннему анализу сформированные внутрижанровыми связями локальные анекдоты, сохраненные в них поэтические фигуры и формы проявления их художественных особенностей.

В «Заключении» обобщены результаты научно-теоретического анализа и многосторонних изысканий.



**S.I.ABBASLI**

## REGIONAL PECULIARITIES OF AZERBAIJAN JOKES

**Summary**

Folk jokes and regional jokes as a part of Azerbaijan culture of laughter ─ folk humor and satire for the first time are investigated in the monographic plan.

These satirical word art samples which mostly well-known as the term “joke” have widely spread in some regions of Azerbaijan and due to the local features one has got different speciality from others. This traditional creative process, known names as “bazama”, “gulmaja”, “mazam”, “dodaggachdy”, “agiz ijadlary”, “bamaza”, “mazali ihtilatlar”, etc. continues to emerge, spread and live today. This creative world composes the basic essence of the investigation.

In the introduction of the dissertation the creation degree, its topicality, scientific newness, aims and duties, practical value of the subject are generalized.

In the first chapter of the dissertation called “History of the collecting, publication and investigation of regional jokes” the initial stage of collecting and publishing genre are followed. The further years in the “folk book” publications of local jokes were emerged and this literary-cultural event based on the extensive factual materials in chronological order was looked through. The works about the collection, publication and research passing historical evolutionary way with individual and many-volumed publications have reached its climax and have played an important role in the enrichment of folk laughter culture. This step has also found its scientific and theoretical resolution.

The second chapter of the dissertation is called “The themes, ideas and images of regional jokes”. In this chapter the theme and content features of regional jokes are analyzed, their images’ system and their specific features are determined. Personality of the founders and narrators of the local jokes, ideological and substantive features as a leading direction are in the spotlight. The classification of regional jokes in a spreading range is carried out.

In the third chapter, called “Poetic originality of local jokes”, regional jokes as a part of the culture of laughter folk satire and humor are looked through in scientific-theoretical analysis.

In the conclusion the gained results of the scientific-theoretical analysis and multilateral research are summarized.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ФОЛЬКЛОРА**

***На правах рукописи***

**СЕНМЕЗ ИСРАФИЛ кызы АББАСЛЫ**

# РЕГИОНАЛЬНЫЕ ОСОБЕННОСТИ АЗЕРБАЙДЖАНСКИХ АНЕКДОТОВ

**10.01.09 – Фольклористика**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание научной степени**
**доктора философии по филологии**

**БАКУ- 2012**